***Magistrant: Hicran Hicran oğlu ZÜLFİBƏYLİ,***
***Adilə Firdovsi qızı MƏMMƏDOVA,***
***Azərbaycan Kooperasiya Universitetinin***
***“Mühasibat uçotu və audit” kafedrası i.f.d., dos.,***
***adilememmedova1967@gmail.com***

# TƏMİZ EKOLOGİYA SAĞLAMLIĞIMIZIN QURTULUŞUDUR

***Xülasə***

Məlumdur ki, ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycanda iqtisadiyyatın davamlı inkişafı, bütün sosial proqramların tam həcmdə və vaxtında yerinə yetirilməsinin əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir.

***Açar sözlər: məqsədyönlü siyasət, qlobal böhran, inkişaf modeli, güclü iqtisadiyyat, sosial sabitlik.***

***

Azərbaycanda aparılan uğurlu, məqsədyönlü siyasət nəticəsində ildən-ilə daha yüksək inkişaf göstəriciləri nümayiş etdirən iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın daha da yüksəldilməsinə, yoxsulluğun azaldılmasına əlverişli şərait yaradıb, əhalinin etibarlı sosial müdafiəsini təmin edib. Təbii ki, dünya iqtisadi sisteminə fəal inteqrasiya yolu seçən Azərbaycanın qazandığı nailiyyətləri şərtləndirən mühüm faktorlardan biri də qloballaşma prosesindən irəli gələn meyarların ölkə reallıqları ilə məharətlə uzlaşdırılması, onların milli maraqları təmin edən uğurlu vəhdətinin yaradılması olub [1, s. 4].

Təbiətin qorunması, flora və faunanın, ətraf mühitin, təbii ehtiyatların mühafizəsi və bərpası hər zaman öz aktuallığını qoruyur. Bizi əhatə edən təbiəti, ətraf mühiti, təbii ehtiyatları qorumaqla gələcək nəsillərə ötürə bilərik. Ona görə də bu məsələ ölkədə davamlı inkişaf konsepsiyasının tərkib hissəsinə çevrilib. Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi, mühafizəsinin təkmilləşdirilməsi Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətlərindən biridir.

Ölkəmizdə ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması sosial islahatlarda mühüm yer tutur. Son illər iqtisadiyyatımızın sürətli inkişafının nəticəsi olaraq artan gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi ekoloji layihələrin həyata keçirilməsi imkanlarını xeyli genişləndirib. Buna görə də bir çox ölkələr maliyyə böhranına məruz qaldıqları bir dövrdə Azərbay-

canda infrastruktur layihələrin icrası davam etdirilib, ekoloji problemlərin həlli istiqamətində görülən tədbirlər ön planda olub.

Azərbaycanda müstəqilliyin bərpasından sonra ətraf mühitin qorunması dövlət siyasətinin prioritetlərindən birinə çevrilib və Prezident İlham Əliyevin bu məsələni xüsusi diqqət mərkəzində saxlaması bunu təsdiqləyir. Ölkəmizdə ekologiyanın qorunması, ətraf mühitin mühafizəsi istiqamətində mütəmadi olaraq tədbirlər planı həyata keçirilir ki, bu da ekologiyanın, ətraf mühitin mühafizəsi sahəsində qarşıya qoyulan məqsədlərin uğurla reallaşmasını şərtləndirir. İstər yaşıllıq sahələrinin salınması, həmin ərazilərin daha da genişləndirilməsi, istərsə də milli parkların ərazilərinin artırılması, eləcə də qorunması ekologiyanın mühafizəsi və bərpası baxımından müsbət nəticələr vəd edir" [4, s.1].

Ölkəmizdə ekologiyanın mühafizəsi üçün mühüm qanunvericilik bazası da yaradılıb: "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edir. Qanunun məqsədi ətraf mühitin ekoloji tarazlığının mühafizəsi sahəsində ekoloji təhlükəsizliyin təmin edilməsindən, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətin zərərli təsirinin qarşısının alınmasından, bioloji müxtəlifliyin qorunub saxlanılmasından və təbabətdən istifadənin səmərəli təşkilindən ibarətdir. Eyni zamanda bu qanun ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədilə cəmiyyətlə təbiətin daim qarşılıqlı əlaqəsini tənzimləyir".

Azərbaycanın inkişaf strategiyasının prioritet istiqamətlərindən biri, təbiətin mühafizəsi, ekoloji vəziyyətin yaxşılaşdırılması və vətəndaşların ən yüksək səviyyədə sağlam təbii mühitdə yaşamasını təmin etməkdir: "Əsası Ulu öndər tərəfindən qoyulmuş bu strategiya onun layiqli davamçısı, cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz ölkə rəhbərinin, cənab İlham Əliyevin təşəbbüsü ilə "2010-cu ilin ölkəmizdə "Ekologiya ili" elan olunması bunun bariz nümunəsi, eləcə də təsdiqidir. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına, nəticə etibarı ilə ekologiyanın mühafizəsinə dair milli proqramların yerinə yetirildiyi də günümüzün reallığıdır.

Heydər Əliyev Fondunun "Hərəmiz bir ağac əkək" layihəsinin də bu sahəyə böyük töhfələr verdiyi göz önündədir və təbii ki, bu layihə ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edir. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində ölkəmizdə hektarlarla sahə yaşıllaşdırılıb və bu işlər müvəffəqiyyətlə davam etdirilir. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə İDEA - Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Kampaniyası çərçivəsində ölkəmizdə ətraf mühitin qorunması sahəsində görülən işlər də göz önündədir".

Hazırda makroiqtisadi sabitliyin qorunub saxlanması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın diversifikasiyası, bütün sahələrdə ardıcıl inkişaf strategiyası uğurla həyata keçirilməkdədir. Ölkənin qeyri-neft sektorunda müşahidə olunan dinamizmi də iqtisadiyyatın diversifikasiyası ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. Xüsusilə Azərbaycan zəngin neft resurslarının satışından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilib.

Ümumiyyətlə, ölkəmizdə həyata keçirilən mütərəqqi iqtisadi tədbirlər respublikamızın daha da güclənməsini təmin edib. Bu gün hər bir sektorda iqtisadi inkişaf müşahidə olunur ki, bunun da əsasında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət dayanır. Azərbaycan Prezidenti bəyan edib ki, dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Güclü iqtisadiyyat həmçinin, əhalinin rifahının daha da yüksəldilməsi istiqamətində uğurlu addımların atılmasını şərtləndirir. Bu gün əhalinin sosial müdafiəsinin gücləndirilməsi yönündə uğurlu siyasət həyata keçirilir ki, bu ciddi nəticələrin əldə olunması ilə müşayiət olunur.

Bir sözlə, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ümummilli liderimiz tərəfindən müəyyənləşdirilən inkişaf siyasətini bu gün uğurla həyata keçirməsi Azərbaycan dövlətini və xalqını firavan, xoşbəxt gələcəyə aparır. Məhz buna görə də, xalqımız hər zaman bu inkişaf siyasətini birmənalı olaraq dəstəkləyir və ona alternativ görmür [2, s. 3].

Ümumiyyətlə, Azərbaycanda tam ictimai-siyasi, sosial sabitlik mövcuddur, əhali dövlətin siyasətindən razıdır. Bu uğurlu nəticələri təmin edən Azərbaycan Prezidentinin cəmiyyətdə nüfuzu çox yüksəkdir. Azərbaycan xalqı Prezident İlham Əliyevin fəaliyyətini yüksək qiymətləndirir və onu dəstəkləyir. Azərbaycanda müşahidə edilən inkişaf prosesinə, görülən işlərə nəzər saldıqda ölkə ictimaiyyətində dövlət başçımıza olan yüksək rəğbətin heç də təsadüfi olmadığı bir daha aydın görünür. Prezident İlham Əliyevin liderliyi dövründə Azərbaycan hər bir sahədə böyük inkişaf yolu qət edib. Təxminən, son 10 il müddətində bütün sahələrdə görülən işlər, qazanılan uğurlar onu göstərir ki, Azərbaycan xalqı doğru yolda irəliləyir və düzgün seçim edib. Bu yol Ulu öndər Heydər Əliyevin yoludur. Ümummilli liderin əsasını qoyduğu inkişaf xətti Azərbaycan Respublikasının güclü dövlətə çevrilməsinə və əbədi mövcudluğuna, Azərbaycan xalqının rifahına, firavan yaşayışına və inkişafına görə dünya xalqları içərisində ön sıralarda dayanmasına hesablanıb. Ulu öndərin müəyyənləşdirdiyi yol aydındır və xalqımız bu yolun ölkəni hansı gələcəyə apardığını yaxşı bilir.

Məhz bu səbəbdəndir ki, Azərbaycan xalqı Ümummilli liderin yolunu davam etdirməyi qarşısına məqsəd qoyan cənab İlham Əliyevi özünün Prezidenti kimi görür və zaman göstərdi ki, xalq öz seçimində yanılmayıb.

Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan qarşıya qoyduğu bir çox məqsədlərinə nail olub. Prezident İlham Əliyevin ölkəni idarə etdiyi dövrdə, bir zamanlar yalnız xəyal kimi görünən nəhəng layihələr, ölkənin hər yerində abadlaşma, müasirləşmə, Azərbaycanın dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı digər məqsədlər artıq gerçəkliyə çevrilib.

O da məlumdur ki, bu müddət ərzində Azərbaycanı yolundan döndərməyə, xalqı aldatmağa yönələn cəhdlər, ölkənin inkişafına yaradılan süni maneələr də olub. Lakin Dövlət başçısının liderlik xüsusiyyətləri, siyasi iradəsi, möhkəm iqtidar-xalq birliyi, vətəndaşların Prezidentin ətrafında sıx birləşməsi və ümumi gücün vahid məqsədə yönləndirilməsi sayəsində ölkəmiz bütün sınaqlardan uğurla çıxıb. Bu səbəbdəndir ki, Azərbaycan öz yolunda sürətlə irəliləyir və ölkənin nailiyyətlərinin miqyası daha da genişlənir [3, s.12].

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə bütün sahələrdə olduğu kimi ekoloji problemlərin həlli məsələlərini də diqqət mərkəzində saxlamış, ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə daim xüsusi qayğı ilə yanaşmışdır. Onun hakimiyyəti illərində ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər geniş vüsət almağa başlamışdır. Ətraf mühitin mühafizəsi sahəsində görülən tədbirlər sırasında meşələrin bərpası və yeni meşələrin salınması xüsusi əhəmiyyət kəsb edir. Həqiqətən də, ölkədə bu cür göstəricilərə nail olunması qazanılmış uğur kimi qiymətləndirilməlidir. Təbii ki, bu da Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu ətraf mühitin mühafizəsinə yönəldilən əsas fəaliyyət proqramının təcəssümü və Prezident İlham Əliyevin yürütdüyü davamlı siyasətin nəticəsidir.

## ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamı (Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi)
2. Heydər Əliyev siyasi kursu Azərbaycan xalqının yeganə nicat yoludur (“Azərbaycan” qəzeti, 11.10.2003-cü il, “Qanunçuluq” jurnalı, N 9)
3. Ramiz Mehdiyev, Dövlət müstəqilliyi: Heydər Əliyev fenomeni və müasir dövr// Müstəqillik yollarında 25. Bakı, “Şərq-Qərb”, 2016, s. 31
4. https://www.yeniazerbaycan.com/MEDIA_e91623_az.html

***Магистрант: Хиджран Хиджран оглы Зульфибейли,***
***Адила Фирдовси кызы Мамедова,***
***кафедра “Бухгалтерский учет и аудит”***
***Азербайджанского Университета Кооперации,***
***e-mail: adilememmedova1967@gmail.com***

## Чистая окружающая среда – спасение нашего здоровья

***Резюме***

Известно, что на фоне глобального кризиса, произошедшего в мире в последние годы, устойчивое развитие экономики в Азербайджане, основа для полной и своевременной реализации всех социальных программ, является зримым показателем создания модель национального экономического развития, заложенная общенациональным лидером Гейдаром Алиевым на прочной основе.

***Ключевые слова: целевая политика, глобальный кризис, модель развития, сильная экономика, социальная стабильность.***

***Master’s: Hijran Hijran Zulfibeyli***
***Adila Firdovsi Mammadova,***
***Head of “Accounting and audit” department of***
***Azerbaijan Cooperation University, Ph.D.,***
***Assoc. Prof., Baku,***
***e-mail: adilememmedova1967@gmail.com***

## A clean environment is the salvation of our health

***Summary***

It is known that in the background of the global crisis that occurred in the world in the past years, the sustainable development of the economy in Azerbaijan, the basis for the full and timely implementation of all social programs is a visible indicator of the establishment of the national economic development model established by the national leader Heydar Aliyev on solid foundations.

***Keywords: targeted policy, global crisis, development model, strong economy, social stability.***